Azərbaycan Respublikası
Bakı şəhəri

"AZİNVESTKREDİT BOKT" MMC

31 dekabr 2013-cü il tarixdə bitən il üzrə
Maliyyə Hesabatları və Müstəqil Auditor Rəyi

Bakı-2014

"AZINVESTKREDİT BOKT" MMC
Bakı, Azərbaycan Respublikası

31 dekabr 2013-cü il tarixdə bitən il üzrə
Maliyyə Hesabatları və Müstəqil Auditor Rəyi

Mündəricat	**səhifə**
Müstəqil Auditor Rəyi	1-2
Balans Hesabatı	3
Gəlirlər və xərclər haqqında Hesabatı	4
Səhmdar Kapitalında Dəyişikliklər Hesabatı	5
Pul Vəsaitlərinin Hərəkəti Hesabatı	6
Maliyyə Hesabatları üzrə Qeydlər	7-20

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI
SƏRBƏST AUDİTOR
Soltanov Qulu Mehbalı oğlu

VÖEN 5300005172 | Lisenziya №072709 | 23.12.2011
Bakı ş. Q.Qarayev ev 3 mən.30 | mob:(050) 368 79 49 | iş:tel.421 58 55

MÜSTƏQİL AUDİTORUN HESABATI

"AZİNVESTKREDİT BOKT" MMC-nin təsisçilərinə

Mən "AZİNVESTKREDİT BOKT" MMC 31 dekabr 2013-cü il tarixinə təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardım.

Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti

Hazırkı maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə fırıldaqçılıq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi və davam etdirilməsi, müvafiq uçot siyasətinin seçilməsi və tətbiq edilməsi, şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsi.

Auditorun məsuliyyəti

Mənim məsuliyyətim apardığım audit yoxlamasına əsasən maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Mən audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında apardım. Həmin Standartların tələblərinə görə, mən etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyam ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olum.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizələrindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor cəmiyyətin daxili nəzarət sisteminin effektliyinə dair rəy bildirmək üçün deyil müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Mən hesab edirəm ki, əldə etdiyim auditor sübutları rəyimi bildirmək üçün kifayət qədər əsas verir.

Azərbaycan Respublikası Auditorlar Palatası Soltanov Qulu Mehbalı oğlu Sərbəst auditor Independent Auditor Gulu M. Soltanov Chamber of Auditors of Azerbaijan Republic

Rəy

Mənim fikrimcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Cəmiyyətin 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyəti və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü sərbəst auditor **Q.M.Soltanov**

Bakı, Azərbaycan Respublikası

Tarix: 13.05.2014-cü il

"AZİNVESTKREDİT BOKT" MMC
Bakı, Azərbaycan Respublikası

Balans
31 dekabr 2013-cü il tarixi
(manat)

	Qeyd	2013
Aktivlər		
Pul və pul vəsaitlərinin ekvivalentləri	4	8240
Müştərilərə verilmiş kreditlər və avanslar	5	299894
Qeyri-maddi aktivlər	6	40
Torpaq, tikili və avadanlıqlar	7	3393
Hesablanmış alınacaq gəlirlər	8	998
Digər aktivlər	9	-
Aktivlərin cəmi		**312565**
Öhdəliklər		
Maliyyə sektoru qarşısında öhdəliklər		-
Hesablanmış ödəniləcək xərclər		-
Digər öhdəliklər	10	742
Öhdəliklərin cəmi		**742**
Kapital və Ehtiyatlar		
Nizamanmə Kapitalı	2	320000
Bölüşdürülməmiş mənfəət (zərər)		-
Cari ilin mənfəəti (zərəri)	11	(8177)
Kapitalın və ehtiyatların cəmi		**311823**
Öhdəliklərin, Kapitalın və Ehtiyatların cəmi		**312565**

Əlavə olunmuş Qeydlər Maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

Auditor Rəyi 1-2-ci səhifələrdə əks olunmuşdur

3-21-ci səhifələrdə təqdim olunan maliyyə hesabatları İdarə Heyəti tərəfindən təsdiq olunmuş və onun adından imzalanmışdır.

Cəfərov Orxan Cəfər oğlu
İdarə Heyətinin Sədri
İsmayılova Səbinə Novruz qızı
Baş mühasib

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ "AZİNVESTKREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI" LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

Auditor R.M. Soltanov

Azərbaycan Respublikasının Auditorlar Palatası Soltanov Qulu Rəhbalı oğlu Sərbəst auditor Independent Auditor Gulu M. Soltanov Chamber of Auditors of Azerbaijan Republic

"AZİNVESTKREDİT BOKT" MMC
Bakı, Azərbaycan Respublikası

Gəlirlər və Xərclər Haqqında Hesabat
31 dekabr 2013-cü il tarixi
(manat)

	Qeyd	2013
Müştərilərə verilmiş kreditlər və avanslar üzrə faiz gəlirləri	12	10700
Digər faiz gəlirləri	12	-
Cəmi faiz gəlirləri		**10700**
Maliyyə sektoru qarşısında öhdəliklər üzrə faiz xərcləri		-
Digər faiz xərcləri		-
Cəmi faiz xərcləri		**-**
Cəmi faiz gəlirləri (zərər)		**10700**
Müştərilərə verilmiş kreditlər və avanslar üzrə ehtimal olunan zərər üçün ehtiyatlar	15	-
Digər aktivlər üzrə ehtimal olunan zərər üçün ehtiyatlar		-
Ehtimal olunan zərər üçün ehtiyatlar çıxıldıqdan sonra xalis faiz gəlirləri (zərər)		**10700**
Divident gəlirləri		-
Haqq və komissiya gəlirləri	13	6880
Haqq və komissiya xərcləri	14	-
Digər əməliyyat gəlirləri	13	-
Digər əməliyyat xərcləri	14	-
Xalis əməliyyat gəlirləri (zərər)		**6880**
Amortizasiya xərcləri		-
Torpaq,tikili və avadanlıqlar üzrə saxlanma xərcləri		-
İnzibati xərclər	16	25757
Digər xərclər		-
Vergiyə cəlb edilənə qədər mənfəət (zərər)		**(8177)**
Mənfəət vergisi üzrə xərc		-
Xalis mənfəət (zərər)		**(8177)**

Əlavə olunmuş Qeydlər Maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

Auditor Rəyi 1-2-ci səhifələrdə əks olunmuşdur
3-21-ci səhifələrdə təqdim olunan maliyyə hesabatları İdarə Heyəti tərəfindən təsdiq olunmuş və onun adından imzalanmışdır.

Cəfərov Orxan Cəfər oğlu
İdarə Heyətinin Sədri
İsmayılova Səbinə Novruz qızı
Baş mühasib

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ "AZİNVESTKREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI" LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

Auditor Q. M. Soltanov

Azərbaycan Respublikasının Auditorlar Palatası Soltanov Gulu Mehbali oğlu Sərbəst auditor Independent Auditor Gulu M. Soltanov Chamber of Auditors of Azerbaijan Republic

"AZİNVESTKREDİT BOKT" MMC
Bakı, Azərbaycan Respublikası

Səhmdar Kapitalın Dəyişməsi Haqqında Hesabat
31 dekabr 2013-cü il tarixi
(manat)

	Nizam. Kap. Ödən. pay	Ehtiyatlar	Bölüşdürülməmiş Mənfəət (zərər)	Kapitalın Cəmi
1 yanvar 2013-cü il tarixə qalıq	-	-	-	-
Uçot siyasətində dəyişikliklərlə və əsaslı səhvlərlə bağlı düzəlişlər	-	-	-	-
1 yanvar 2013-cü il tarixə düzəldilmiş qalıq	-	-	-	-
Nizamnamə kapitalı daxil olub	320000	-	-	**320000**
Nizamnamə kapitalı qaytarılıb	-	-	-	-
Dividentlər ödənilib	-	-	-	-
İl üzrə xalis mənfəət (zərər)	-	-	(8177)	**(8177)**
31 Dekabr 2013-cü il tarixə	**320000**	-	**(8177)**	**311823**

Əlavə olunmuş Qeydlər Maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

Auditor Rəyi 1-2-ci səhifələrdə əks olunmuşdur

Cəfərov Orxan Cəfər oğlu
İdarə Heyətinin Sədri
İsmayılova Səbinə Novruz qızı
Baş mühasib

AZİNVESTKREDİT BANK ÜLMAYAN KREDİT TƏŞKİLATI" LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

Auditor A.M. Soltanov

Azərbaycan Respublikasının Auditorlar Palatası Soltanov Qulu Məmməd oğlu Sərbəst auditor Independent Auditor Gulu M. Soltanov Chamber of Auditors of Azerbaijan Republic

"AZİNVESTKREDİT BOKT" MMC
Bakı, Azərbaycan Respublikası

Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat
31 dekabr 2013-cü il tarixi
(manat)

	Qeyd	2013
Əməliyyat faliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti		
Maliyyə sektoruna verilmiş kreditlər və avanslar üzrə alınmış faiz gəlirləri	12	-
Müştərilərə verilmiş kreditlər və avanslar üzrə alınmış faiz gəlirləri	12	10700
Maliyyə sektoru qarşısında öhdəliklər üzrə faiz xərcləri		-
Alınmış komission haqqı	13	6880
Ödənilmiş komission haqqı	14	-
Alınmış digər əməliyyat gəlirləri	13	(998)
Ödənilmiş əməliyyat xərcləri	16	(25757)
Ödənilmiş mənfəət vergisi		-
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl yaranan (istifadə olunan) xalis pul vəsaitləri		**(9175)**
Əməliyyat fəaliyyətində aktiv və öhdəliklərə üzrə dəyişikliklər (artım/azalma)		
Maliyyə sektoruna verilmiş kreditlər və avanslar üzrə		-
Müştərilərə verilmiş kreditlər və avanslar üzrə		(299894)
Digər əməliyyat aktivləri üzrə		-
Digər əməliyyat öhdəlikləri		742
Əməliyyat fəaliyyətindən yaranan (istifadə olunan) xalis pul vəsaitləri		**(299152)**
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti:		
Qeyri-maddi aktivlərin alınması üzrə ödənişlər		-
Torpaq, tikili və avadanlıqların alınması üzrə ödənişlər		(3433)
Torpaq, tikili və avadanlıqların satışı üzrə daxilolmalar		-
İnvestisiya fəaliyyətindən yaranan (istifadə olunan) xalis pul vəsaitləri		**(3433)**
Maliyə fəaliyyətindən yaranan xalis pul vəsaitlərinin hərəkəti:		
Dividentlərin ödənilməsi		-
Bütün digər maliyyə fəaliyyətləri üzrə daxilolmalar (ödənişlər)		320000
Maliyyə fəaliyyətindən yaranan (istifadə olunan) xalis pul vəsaitləri		**320000**
Pul və pul vəsaitlərin ekvivalentləri üzrə xalis artım (azalma)		**8240**
Hesabat dövrünün əvvəlinə pul və pul vəsaitlərinin ekvivalentləri		**-**
Hesabat dövrünün sonuna pul və pul vəsaitlərinin ekvivalentləri		**8240**

Əlavə olunmuş Qeydlər Maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.
Auditor Rəyi 1-2-ci səhifələrdə əks olunmuşdur.

Cəfərov Orxan Cəfər oğlu
İdarə Heyətinin Sədri
İsmayılova Səbinə Novruz qızı
Baş mühasib

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ "AZİNVESTKREDİT BANK OLMAYAN KREDİT TƏŞKİLATI" LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

Azərbaycan Respublikasının Auditorlar Palatası Soltanov Gulu Mehbalı oğlu Sərbəst auditor Independent Auditor Gulu M. Soltanov Chamber of Auditors of Azerbaijan Republic

1.Hüquqi statusu və işgüzar fəaliyyət

1.1 "AZİNVESTKREDİT BOKT" MMC Azərbaycan Respublikasının qanunları əsasında yaradılan bank olmayan kredit təşkilatıdır. Təşkilat 27.05.2013-cü il tarixdə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 30.04.2007-ci il taixli Fərmanına əsasən "bir pəncərə" prinsipi ilə qeydiyyata alınmış və ona 1502275131 saylı Dövlət Qeydiyayt №-si (VÖEN) verilmişdir.

1.2 "AZİNVESTKREDİT BOKT" MMC-yə Azərbaycan Respublikası Mərkəzi Bankından ("AMB") 05.08.2013-cü il tarixdə 06-02420-2013 saylı kreditlərin verilməsi üçün **Xüsusi razılıq** (lisenziya) verilmişdir. Lisenziyaya əsasən təşkilata təminatlı və təminatsız kreditlərin verilməsi habelə, "Bank olmayan kredit təşkilatları" haqqında Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olmaq hüququ verilmişdir. Bundan əlavə həmin lisenziyada "AZİNVESTKREDİT BOKT" MMC -nin girov əmanəti qəbul etmək hüququ olduğu göstərilmişdir.

1.3 Təşkilatın təsisçiləri əvvəlcə Azərbaycan Respublikasının vətəndaşlarının Cəfərov Orxan Cəfər oğlunun 50 %, Tanriverdiyev Ceyhun Rafiq oğlunun 25% və Əliyeva Gülnarə Xanməd qızının 25% paya malik olmuşlar. Hazırki dövrdə isə Cəfərov Orxan Cəfər oğlu 50% və İsmayılov Əkbər Novruz oğlu isə 50% paya malikdirlər.

1.4 Təşkilatın əsas fəaliyyəti kreditlər vermək, qanunvericiliyə müvafiq digər fəaliyyət növləri ilə məşğul olmaqdır.

1.5 Təşkilatın qeydiyata alınmış ofisi Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu F.X.Xoyski prospekti, 108 "b".

1.6 Menecment və nəzarət İdarə heyətinin sədri c-b Cəfərov Orxan Cəfər oğlu tərəfindən aparılır ki, bu şəxs də Təşkilatın təsisçilərinə hesabat verir.

2. Nizamnamə kapitalı

Təşkilatın nizamnamə kapitalı hazırda təsissçilərin qoyduğu 320000 manat həcmində və hər biri 160000 manat olmaqla 2 paydan ibarətdir.

3.Uçot siyasətinin mühüm cəhətləri:

İqtisadi asılılıq

Təşkilat əsas etibarilə heç bir şəxsdən və müəssisədən asılı deyildir.

Hesabatların hazırlanmasının əsasları:

Uyğunluq

Maliyyə hesabatları Mərkəzi Beynəlxalq Uçot Standartları Şurasının (BUSŞ) qəbul etdiyi Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS), Beynəlxalq Maliyyə Hesabatlarının Təfsiri Komitəsinin (BMHTK) qəbul etdiyi izahatlara və bu hesabatlara tətbiq edilməsi məqbul sayılan Azərbaycan Respublikasının Bank fəaliyyəti haqqında qanunvericilik aktlarına əsasən tənzimləmə üçün Azərbaycan Mərkəzi Bankının təkmilləşdirilmiş təlimatlarına uyğun olaraq hazırlanmışdır. Bu hesabatlarla bərabər, Təşkilat uyğun dövr üzrə BMHS-ə müvafiq surətdə hesabatlar da hazırlamışdır. Həmin hesabatların surəti ilə İttifaqın ofisində tanış olmaq olar.

Aşağıdakı surətdə tətbiq olunmuş mühüm uçot siyasətləri aşağıdakılardır:

Uçot konvensiyası

Maliyə hesabatları, şərti aktivlər istisna olmaqla, tarixi xərclər əsasında hazırlanmışdır. Şərti aktivlər ədalətli dəyərlə ölçülmüşdür. Tətbiq olunmuş uçot siyasəti əvvəlki illərdə aparılmış uçot siyasətinə uyğundur. Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Manatı (AZN) ilə təqdim edilmişdir.
Maliyyə hesabatları törəmə maliyyə alətləri, ticarət üçün saxlanılan və satış üçün mövcud olan maliyyə aktivləri və passivlərinin bazar dəyəri əsasında hazırlanmasıdır; bazar dəyərinin etibarlı ölçü meyarı olmayan alətlər burada istisna təşkil edir. Digər maliyyə aktiv və passivləri, şərti maliyyə aktiv və passivləri amortizasiya olunmuş dəyəri və ya ilkin dəyəri ilə göstərilmişdir.
Azərbaycan Respublikasının Milli valyutası Yeni Azərbaycan Manatıdır ("AZN"). Rəhbərlik AZN-İ Təşkilatın ölçmə valyutası kimi müəyyənləşdirilmişdir; belə ki, bu valyuta Təşkilatın əsas fəaliyyəti və vəziyyətini iqtisadi mahiyyətini əks etdirir. AZN həm də bu maliyyə hesabatları üçün Təşkilatın istifadə etdiyi valyutadır.

Fəaliyyətdə olan müəssisə

Hazırki maliyyə hesabatları fəaliyyətdə olan müəsisə prinsipi əsasında hazırlanmışdır və buna uyğun olaraq aktivləri satılması və öhdəliklərin yerinə yetirilməsinin biznesin normal davamlılığı əsasında baş verdiyi nəzərdə tutulur. Təşkilatın aktivlərinin bərpa olunması, həmçinin Təşkilatın gələcək əməliyyatı cari və gələcək iqtisadi mühütin və Təşkilatdan iqtisadi asılılığın əhəmiyyətli təsirinə məruz qala bilər. Hazırki maliyyə hesabatlarına Təşkilatın fəaliyyətdə olan müəssisə kimi işləməsini qeyri-mümkün edən hər hansı düzəliş edilməmişdir.

Xarici valyuta əməliyyatları

Xarici valyutalarda əməliyyatlar əməliyyat günü mövcud olan mübadilə kursu ilə uyğun ölçü valyutasında ifadə olunur. Balans tarixinə xarici valyutada ifadə olunan monetar aktiv və passivlər həmin gün mövcud olan xarici valyuta kursu ilə uyğun ölçü valyutasında əks olunur. Çevrilmə nəticəsində yaranan kurs ilə uyğun ölçü hesabatında tanınır. Xarici valyuta ilə ifadə olunan və ilkin dəyəri ilə göstərilən qeyri-monetar aktiv və passivlər əməliyyat günündə mövcud olan xarici valyuta kursu ilə ölçü valyutası olan manata çevrilir.

Nağd pul və onun ekvivalentləri

Nağd pul və onun ekvivalentlərinə bir gün ərzində nağd pula çevrilə bilən vasitələr aiddir. Bir gecəlik qoyuluşlar istisna olmaqla, qısamüddətli Təşkilatlararası qoyuluşlar, başqa Təşkilatların borcları kimi göstərilmişdir.

Maliyyə alətləri

Maliyyə alətlərinə maliyyə aktivləri və maliyyə öhdəlikləri aid edilir. Maliyyə aktivləri və maliyyə öhdəlikləri Təşkilatın balansına, Təşkilat alətin kontrakt müddəalarının tərəfi olduğu andan daxil edilir. Maliyyə alətlərində nağd pul və ya digər maliyyə aktivlərini almaq, potensial sərfəli şərtlərlə maliyyə alətlərinin dəyişdirilməsinə kontrakt hüququ və ya kapital qoyuluşu alətləri aiddir. Maliyyə öhdəliklərinə nağd pul və ya digər maliyyə aktivlərini vermək və potensial sərfəli olmayan şərtlərlə maliyyə alətlərinin dəyişdirilməsinə dair kontrakt öhdəliyi daxildir.

Təsnifat

Ticarət alətləri elə alətlərdir ki, Təşkilatın onları əsas etibarilə qısa-müddətli gəlir əldə etmək məqsədi ilə saxlayır. Buraya investisiyalar və maliyyə alətlərinin qısa satışından yaranan öhdəliklər daxildir. Xalis alacaqlar mövqeyində olan bütün ticari törəmə alətlər (müsbət ədalətli dəyər), həmçinin alınmış opsionla aktivlərdə əks olunur. Xalis ödəniləcəklər mövqeyində olan bütün ticari törəmə alətlər (mənfi ədalətli dəyər), həmçinin yazılmış opsionlar passivlərdə əks olunur.
Yaranmış kredit və alacaqlar Təşkilat tərəfindən qısa müddətli gəlir götürmək məqsədi ilə verilən puldan fərqli olaraq debitora pul verməklə yaradılan alacaqlardır. Yaranmış kredit və alacaqlar əldə olunmuş kreditlərdən fərqli oalraq Təşkilat və müştərilərə verilmiş kredit və qabaqcadan ödənişləri əhatə edir.
Ödəmə müddəti tamamlananadək saxlanılan aktivlər ödənişi sabit və müəyyən oluna bilən və sabit ödəniş müddəti olan maliyyə aktivləridir ki, Təşkilat onları ödəmə müddəti tamamlananadək saxlamaq fikrində və imkanındadır.
Satış üçün mövcud olan aktivlər Təşkilat tərəfindən yaranan satış məqsədləri üçün və ya ödəmə müddəti tamamlananadək saxlanılan maliyyə aktivləridir.

Tanıma

Təşkilat ticarət üçün saxladığı maliyyə alətlərini və satış üçün yararlı olan aktivləri həmin aktivləri almaq üçün öhdəlik götürdüyü tarixdən etibarən tanıyır.
Ödəmə müddəti tamamlananadək olan aktivlər və ya törəmə kredit və alacaqlar onların Təşkilat tərəfindən ifadə olunduğu və ya yaradıldığı tarixdən tanınır.

alətləri əməliyyat xərcləri daxil olmaqla ilkin dəyəri ilə ölçülürlər.
sonra bütün ticari və satış üçün yararlı olan alətlər ədalətli dəyərlə ölçülür; aktiv müəyyənləşən bazar qiyməti olmayan hər hansı bir alət burada istisna təşkil edir və ədalətli əminliklə ölçülə bilməyən həmin alətlər əməliyyat xərcləri daxil olmaqla və itkilər maya dəyərləri ilə tanınırlar.
qeyri-ticari maliyyə öhdəlikləri, törəmə kredit və alacaqlar və ödəmə müddəti tamamlanadək aktivlər itkilər çıxılmaqla amortizasiya olunmuş dəyərləri ilə ölçülür. Amortizasiyası dəyər effektiv faiz dərəcəsi metodu ilə hesablanır. İlkin əməliyyat xərcləri daxil olmaqla uyğun alətin balans dəyərinə daxil edilir və alətin efektiv faiz dərəcəsi əsasında amortizasiyası hesablanır.

Ədalətli dəyərin ölçülməsinin prinsipləri

Maliyyə alətlərinin ədalətli dəyəri əməliyyat xərcləri nəzərə alınmadan onların balans tarixində bazarda müəyyən olunmuş qiymətinə əsaslanır. Əgər müəyyən olunmuş bazar qiyməti mövcud deyilsə, alətin ədalətli dəyəri qiymətləndirmə modelləri və ya diskontlaşdırılmış pul vəsaitləri axını üsullarından istifadə etməklə qiymətləndirilir.
Diskontlaşdırılmış pul vəsaitləri axını üsulundan istifadə olunduqda, gələcək pul vəsaitlərinin qiymətləndirilməsi rəhbərliyin ən yaxşı qiymətləndirmələrinə əsaslanır və diskont dərəcəsi hər hansı bir bənzər alət üçün eyni şərtlərlə balans tarixində qüvvədə olan uyğun bazar dərəcəsidir. Qiymətləndirmə modellərindən istifadə olunduğu zaman, xərclər balans tarixində bazarla bağlı olan ölçmələrə əsaslanır.
Mübadilə yolu ilə ticarəti həyata keçirilməyən törəmə alətlərin ədalətli dəyəri balans tarixində kontrakt ləğv etmək üçün mövcud bazar şəraitini və tərəflərin cari kredit qabiliyyətlərini nəzərə almaqla Təşkilatın alacağı və ya ödəyəcəyi məbləğlə qiymətləndirilir.

Sonrakı ölçmələr əsasında yaranan gəlir və xərclər

Bütün ticari alətlərin ədalətli dəyərindəki dəyişiklikdə və satış üçün mövcud olan qiymətli kağızların ticarətindən yaranan gəlir və xərclər mənfəət və zərər hesabatında əks olunur.

Tanınmama

Hər hansı bir maliyyə aləti o zaman tanınır ki, Təşkilat həmin aktivlərə şamil edilən qanuni hüquqları üzərindəki nəzarəti itirir.Bu o zaman baş verir ki, ya hüquqlardan tam istifadə edilib, onların müddəti başa çatıb və ya həmin hüquqlar dayandırılıb. Hər hansı maliyyə öhdəliyi o zaman tanınmır ki, o ləğv olunur.
Satış üçün mövcud olan aktivlər və ticarət məqsədilə saxlanılan aktivlər satıldıqda tanınmır və alıcı tərəfindən ödəniləcək uyğun alacaqlar Təşkilat həmin aktivi satmaq öhdəliyi götürdüyü balans tarixindən etibarən tanınır. Təşkilat tanımama nəticəsində yaranan gəlir və itkini müəyyənləşdirmək üçün spesifik identifikasiya metodundan istifadə edir.
Ödəmə müddəti bitənədək saxlanılan alətlər və törəmə kredit və alacaqlar Təşkilat tərəfindən dövr edildiyi gündən etibarən tanınmır.

Əvəzləşdirmə

Balans hesabatında maliyyə aktivlərinin və öhdəliklərinin əvəzləşdirilməsi və alınan xalis məbləğin hesabatda əks olunmasına yalnız o həyata keçirilir ki, uçota alınmış məbləğlərin əvəzləşdirilməsi üçün hüquqi əsas vardır və eyni zamanda xalis əsasda aktivi əldə etmək və ya passivi yerinə yetirmək niyyəti mövcuddur.

Əmlak və avadanlıq

Əmlak və avadanlıq maddələri amortizasiya və ya hər hansı müəyyənləşdirilmiş itkilər çıxılmaqla əldə olunma xərcləri ilə uçota alınır;
Köhnəlmə, aktivlərin alındığı gündən və yaxud daxildə hazırlanan aktivlər üçün həmin aktiv tam *hazırlandıqda və istifadəyə yararlı olduğu gündən etibarən hesablanmağa başlayır. Torpağa* amortizasiya hesablanmır. Əmlak və avadanlıq onların qiymətləndirilmiş istismar müddəti nəzərə alınmaqla qalıq dəyəri metodu ilə amortizasiya olunur.

Qəbul edilən faiz dərəcələri aşağıdakılardır:

Mebel və avadanlıqlar	13%
Komputerlər və Rabitə avadanlıqları	15%
Nəqliyyat vasitələri	20 %
Qeyri-əsas vəsaitlər	10%

Dəyərdən düşmə

Təşkilatın aktivlərinin balans dəyərinə hər hansı bir hadisə və ya şəraitin dəyişməsi nəticəsində həmin dəyərin ədalətli olub- olmamasını müəyyən etmək üçün təkrar baxılır. Əgər hər hansı belə hal mövcuddursa aktivlərin bərpa oluna bilən məbləğləri qiymətləndirilir. Aktivlərin balans dəyəri onların bərpa oluna bilən dəyərindən yüksək olduqda mənfəət və zərər hesabatında müvafiq zərər tanınır.

Bərpa oluna bilən məbləğin hesablanması

Təşkilatın ödəmə müddəti bitənədək saxlanılan qiymətli kağızlara qoyduğu investisiyaların bərpa oluna bilən məbləği və alacaqları gələcəkdə gözlənilən pul vəsaitlərinin hərəkətinin hazırki dəyərinin hesablanması qaydası ilə, aktivlərdə ayrılmaz hissə olan əsas effektiv faiz dərəcəsinin çıxılması (diskontlaşdırılması) yolu ilə hesablanır. Təşkilatın ticari investisiyaları və satış üçün nəzərdə tutulan investisiyaların bərpa oluna bilən məbləği onların ədalətli dəyəridir.
Digər aktivlərin bərpa oluna bilən məbləği onların xalis satış qiyməti və istehlak dəyərindən daha çox olur. İstehlak dəyəri qiymətləndirilərkən, pulun vaxt dəyərinin cari bazar qiymətləndirilməsini əks etdirən vergidən öncəki diskont dərəcəsindən və aktivlərə xas olan risklərdən istifadə etməklə pul vəsaitlərinin təxmin edilən gələcək hərəkəti onların cari dəyərindən çıxılır. Pul vəsaiti hərəkəti yaratmayan hər hansı bir aktiv digər aktivlərdən əsaslı dərəcədə asılı olduğu üçün bərpa oluna bilən məbləğ aktivin aid olduğu nağd pul vəsaiti doğuran vahid üçün təyin olunur.

Dəyərdən düşmənin geri qaytarılması

Ödəmə müddəti bitənədək saxlanılan qiymətli kağızlarla bağlı dəyərdən düşmə itkisi və ya alacaqlar o halda geri qaytarılır ki, bərpa oluna bilən məbləğdə böyük artımın dəyərdən düşmə tanındıqdan sora baş verən hər hansı bir hadisəyə obyektiv şəkildə aidiyyəti ola bilsin.
Digər aktivlərlə bağlı dəyərdən düşmə itkisi o zaman geri qaytarılır ki, bərpa oluna bilən məbləğin müəyyənləşdirilməsi üçün istifadə olunan hesablamalarda dəyişikliklər olsun. Hər hansı dəyərdən düşmə itkisi yalnız o həddə qədər geri qaytarlır ki, aktivin balans dəyəri əgər heç bir dəyərdən düşmə tanınmasa, köhnəlmə və amortizasiya çıxılmaqla müəyyən edilə bilən balans dəyərindən çox olmasın.

Faizli borclar

Faizli borclar ilkin olaraq çəkilən əməliyyat xərcləri çıxılmaqla dəyəri ilə tanınırlar. İlkin tanınmadan sonra, faizli borclar amortizasiya olunmuş dəyərləri ilə göstərilir; bu zaman ilkin və qaytarılmış məbləğlər arasındakı fərq nəzərə alınır və ödənilən dəyər mənfəət və zərər hesabatında tanınır.
Əgər borclar təkrar alınırsa və ya ödəmə müddətindən öncə bağlanırsa geri ödənilən məbləğ və balans məbləği arasındakı fərq həmin anda mənfəət və zərər hesabatında tanınır.

Ehtiyatlar

Hər hansı bir ehtiyat balans hesabatında o zaman tanınır ki, Təşkilatın keçmiş bir hadisə nəticəsində hüquqi və konstruktiv öhdəliyi vardır və həmin öhdəliyi yerinə yetirmək üçün iqtisadi mənfəətin kənara axını, başqa sözlə iqtisadi zərər yarana bilər. Əgər təsir maddi xarakter daşıyırsa, ehtiyatlar gələcək nağd pul axının cari dəyərinin bazar qiymətləndirilməsini əks etdirən vergidən öncəki dərəcə əsasında gələcəkdə gözlənilən pul vəsaitləri axının diskontlaşdırılması yolu ilə müəyyən olunur.

Dividentlər

Təşkilat dividentləri elan etmək və ödəmək imkanları AMB-nin və Azərbaycan Respublikasının digər qanunvericlik aktları və qaydaları ilə tənzimlənir.
Adi səhmlərlə bağlı dividentlər elan olunduğu günə olan bölüşdürülməmiş mənfəətə düzəliş kimi əks olunur.

Vergi

Maliyyə hesabatlarında daxil edilmiş mənfəətdən vergi, hal-hazırda Azərbaycanda qüvvədə olan qanunvericiliyə əsasən müəyyənləşdirilir. Mənfəət və zərər hesabatında il üçün mənfəət vergisi məbləğinə cari vergi və təxirə salınmış vergidə dəyişikliklər daxildir. Cari vergi, balans tarixinə mövcud olan vergi dərəcələri ilə il üçün gözlənilən, vergiyə cəlb oluna bilən gəlir əsasında hesablanır. Mənfəətdən vergidən başqa digər vergilər əməliyyat xərclərinə daxil edilmişdir.Öhdəliklər üsulu ilə müəyyən olunan təxirə salınmış gəlir vergisi, aktivlərin və öhdəliklərin vergi bazası və onların maliyə hesabatı məqsədi ilə qəbul olunmuş qiymətləri arasında yaranmış müvəqqəti fərqdən irəli gəlir. Təxirə salınmış vergi aktivlərin o zaman uçota alınır ki,gələcəkdə həmin müvəqqəti fəqlərə görə vergiyə cəlb oluna biləcək mənfəətin yaranması ehtimal edilsin.
Əsas müvəqqəti fərqlər müxtəlif amortizasiya normalarına, kreditlər üzrə itkilər üçün ehtiyatlara, hesablanmış faiz gəlirlərə və xərclərə, mənfəətdən vergi hesablamalarına və hazırki maliyə hesabatlarına görə yarana bilər.

Vergi (davamı)

Mənfəət vergisi cari və təxirə salınmış vergini əhatə edir. Birbaşa konkret balans maddəsində tanınan vergi istisna olmaqla, bu halda vergi həmin maddədə tanınır, mənfəət vergisi mənfəət və zərər hesabatında tanınır.
Cari vergi xərci qüvvədə olan vergi dərəcələri və ya balans hesabatında qüvvədə olan dərəcələr və keçmiş illərlə bağlı ödənilməli olan vergi düzəlişlərindən istifadə etməklə il ərzində qazanılmış, vergiyə cəlb olunan mənfəətə görə ödənilməsi nəzərdə tutulan vergidir.
Təxirə salınmış vergi balans hesabatı passivi üsulundan istifadə etməklə göstərilir. Burada maliyyə hesabatları məqsədləri üçün aktiv və passivlərin balans dəyərləri və vergi məqsədləri üçün istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlər göstərilir. Aşağıdakılar göstərilmir: vergi məqsədləri üçün qudvil çıxılmır, nə mühasibat uçotuna, nə də vergiyə cəlb olunan mənfəətə təsir edən aktiv və passivlərin ilkin tanınması, törəmə müəssisələrdə, fliallarda və assosiasiya olunmuş müəssisələrdəki investisiya ilə bağlı müvəqqəti fərqlər; burada ana müəssisə müvəqqəti fərqi geri qaytarmağın (bağlanmasının) müddətinə nəzarət edə bilir və gələcəkdə müvəqqəti fərqin geri qaytarılmaması mümkün olur. Təxirə salınmış verginin göstərilən məbləği qüvvədə olan vergi dərəcələri və ya əsasən balans hesabatında qüvvədə olan dərəcələrdən istifadə etməklə aktiv və passivlərin balans məbləğinin realizasiyası və ya ödənişinin təxmin edilən metoduna əsaslanır.
Təxirə salınmış vergi aaktivi yalnız o dərəcədə tanınır ki, müvəqəti fərqlərin, istifadə olunmayan vergi itkilərinin və kreditlərin istifadə edilə bildiyi gələcək vergiyə cəlb olunan mənfəətin mövcud olması mümkün olsun.. Təxirə salınmış vergi aktivləri o dərəcədə azaldılır ki, uyğun vergi güzəştlərindən istifadə edilə bilməsin.

Faiz gəliri

Aktiv və passivin effektiv faiz gəlirini və tətbiq oluna bilən dəyişkən faiz dərəcəsini nəzərə almaqla faiz gəliri və xərci mənfəət və zərər hesabatında hesablanan andan etibarən tanınır. Faiz gəliri və xərcinə hər hansı diskont və yaxud faiz hesablanan alətin ilkin balans məbləği və onun müddətinin bitdiyi günə effektiv faiz dərəcəsi ilə hesablanan məbləği arasındakı digər fərqlər daxil edilir.

Haqq və komissiya gəliri

Haqq və komissiya gəliri o zaman tanınır ki, uyğun xidmət göstərilmiş olsun.

Divident gəliri

Təşkilatın nəzarəti və əhəmiyyətli təsir olmadığı Təşkilatlardakı investisiyalarından əldə etdiyi divident gəliri mənfəət və zərər hesabatında elan olunduğu gündən etibarən tanınır.

	2013
Pul və pul vəsaitlərinin ekvivalentləri	
Kassa	8107
Rezident banklardakı "nostro" müxbir hesabları	133
Rezident banklarda yerləşdirilmiş qısamüddətli depozitlər	-
	8240

5.Müştərilərə verilmiş kreditlər və avanslar

Kreditlər və avans portfelinin quruluşu aşağıdakı kimidir:	
Fiziki şəxslərə və özəl müəssisələrə verilmiş qısamüddətli kreditlər-milli valyutada	153431
Fiziki şəxslərə və özəl müəssisələrə verilmiş uzunmüddətli kreditlər-milli valyutada	146463
Vaxtı keçmiş qısamüddətli kreditlər və avanslar	-
Vaxtı keçmiş uzunmüddətli kreditlər və avanslar	-
Cəmi kreditlər	*299894*

Minus: Vaxtı keçmiş kreditlər və avanslar üzrə ehtimal olunan zərər üçün ehtiyatlar

İl ərzində hesablanmışdır	-
	299894

Kreditlər əsas etibarilə Azərbaycan Respublikasında müştərilərə verilmişdir və həmin müştərilər aşağıdakı iqtisadi sahələrdə fəaliyyət göstərirlər:

Kreditlərin seqmentlər üzrə təhlili:

Hüquqi şəxslər	82000
Fiziki şəxslər	217894
Ticarət və xidmət sektorunda fəaliyyət göstərən özəl müəssisələrə verilmiş qısamüddətli kreditlər	-
Ehtimal olunan zərə üçün ehtiyatlar	-
	299894

2013

6. Qeyri maddi aktivlər

	LİSENZİYA.	Cəmi
Balans dəyəri:		
Yanvar 1,2013	-	-
Alınanlar	40	40
Dekabr 31,2013	40	40
Hesablanmış köhnəlmə:		
Yanvar 1, 2013	-	-
İl ərzində köhnəlmə	-	-
Dekabr 31, 2013	-	-
Qalıq dəyəri:		
Dekabr 31,2013	40	40
Dekabr 31,2012	-	-

7.Torpaq,tikili və avadanlıqlar

	Mebel və Avadanlıq	Komputerlər və Rabitə avadanlığı	Nəqliyyat vasitələri	Digər əsas vəsaitlər	Cəmi
Balans dəyəri:					
Yanvar 1,2013	-	-	-	-	-
Alınanlar	1042	2319	-	32	3393
Dekabr 31,2013	1042	2319	-	32	3393
Hesablanmış köhnəlmə:					
Yanvar 1, 2013	-	-	-	-	-
İl ərzində köhnəlmə	-	-	-	-	-
Dekabr 31, 2013	-	-	-	-	-
Qalıq dəyəri:					
Dekabr 31,2013	1042	2319	-	32	3393
Dekabr 31,2012	-	-	-	-	-

	2013
8.Hesablanmış alınacaq gəlirlər	
Fiziki şəxslər və özəl müəssisələrə verilmiş qısamüddətli kreditlər üzrə hesablanmış alınacaq faizlər	428
Fiziki şəxslər və özəl müəssisələrə verilmiş uzunmüddətli kreditlər üzrə hesablanmış alınacaq faizlər	570
	998

9. Digər aktivlər

Digər debitorlar	-
	-

10. Digər öhdəliklər

Vergilər Nazirliyinə ödəniləcək vəsaitlər	479
Dövlət fondlarına və digər fondlara ödəniləcək vəsaitlər	263
Digər kreditorlar	-
İşçilərə ödəniləcək əmək haqqı və digər məbləğlər	-
	742

11.Bölüşdürülməmiş mənfəət

Açılış balansı	-
İl ərzində xalis mənfəət	(8177)
Elan edilmiş və ödənilmiş divident	-
Qapanış balansı	**(8177)**

Audit aparılan tarixədək hesabat dövrünün mənfəətinə görə divident ödənilməsi elan edilməmişdir.

	2013

12. Faiz gəlirləri

Müştərilərə verilmiş kreditlər və avanslar üzrə hesablanmış faizlər	10700
Rezident banklarda yerləşdirilmiş müddətli depozitlərə üzrə faiz gəlirləri	-
	10700

Faiz gəlirlərinin konsentrasiyası:

Faiz gəlirləri	
Müştərilərə verilmiş kreditlər üzrə	10700
Depozitlər üzrə	-
	10700

13. Haqq və komissiya gəlirlər

Haqq və komissiya gəlirləri	6880
Digər əməliyyat gəlirləri	-
	6880

14. Haqq və komissiya xərcləri

Bank xidmətləri üzrə komissiya xərcləri	-
	=

	2013
15. Vaxtıkeçmiş kreditlər və avanslar üzrə ehtimal olunan zərər üçün ehtiyatlar	
"Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırmalar (xərc)	-
Ümüdsüz borcların silinməsi	-
	=

16.Ümumi idarəetmə xərcləri

Əmək haqqı	4371
DSMF ayırmalar	962
İcarə haqqı	15000
Digər xərclər	5424
	25757

17.İşçilər

İçilərin sayı (orta)	6

18. Maliyyə alətləri

Maliyyə alətlərinə banklarda və maliyyə qurumlarında saxlanılan nağd pul vəsaitləri, müştərilərə verilmiş avanslar, digər aktivlər, sair aktivlər, kreditor borcları, banklara borc və sair öhdəliklər aiddir.

Kredit riski

Cəmiyyətin risklərinin konsentrasiyasına səbəb olan maliyyə alətləri potensial olaraq bank hesablarındakı vəsaitləri, müştərilərin borclarını və digər debitor borclarını, habelə sair aktivləri əhatə edir.
Kredit borcları və sair borclar şübhəli borclar üzrə ehtiyatlar daxil edilmədən göstərilmişdir.

Riskin idarə olunması

Kredit riski

Kreditlərlə bağlı siyasət Təşkilatın kredit komitəsi tərəfindən baxılır və bəyənilir. Mümkün olduğu hallarda, kreditlər kredit risklərini aradan qaldırmaq üçün məqbul girovlarla təmin olunur.
BOKT üzrə kreditin maksimal müddəti 36 aya və 36 % üzrə verilmişdir.

...iyyə aləti (davamı)

Likvidlik riski və faiz dərəcələri

Təşkilatın aktiv və öhdəliklərə nəzarət edən komitəsi faiz dərəcəsi və likvidlik risklərinin idarə edilməsi siyasətini müəyyən edir və yoxlayır. Şura ayda bir dəfə yığılır və Maliyyə Normativlərini və iqtisadi inkişafı təhlil edir və sonrakı dövr üçün təlimat hazırlayır.

Bazar dəyəri

Balans hesabatının hazırlanma tarixinə maliyyə aktivlərinin və öhdəliklərinin bazar qiymətləri onların ilin sonuna olan qiymətlərinə uyğundur.

İdarə heyətinin sədri: **O.C.Cəfərov**

Baş mühasib: **S.N.İsmayılova**